


# İlin yubilyarları

*Haqqında söhbət açdığımız şair və yazıçılar haqqında müasir gəncliyin məlumatı çox azdır. Yəqin ki, bu da onların təbliğ olunmaması, son vaxtlar əsərlərinin dərc edilməməsi ilə bağlıdır.*

*Yubileyləri ərəfəsində bu sükutu pozmaq qərarına gəldik.*

## Abdulla Faruq - 100

Abdulla Musa oğlu Əfəndiyev 1907-ci il aprelin 24-də Göyçayın Poti kəndində anadan olmuşdur. ADU-nun pedaqoji fakültəsini bitirmişdir.

Bakının bir sıra məktəblərində müəllim, "Ədəbiyyat qəzeti" və "Şərq qadını" jurnalı redaksiyalarında müxtəlif vəzifələrdə işləmişdir.

İkinci dünya müharibəsində iştirak etmiş, 1944-cü ildə Taqanroq ətrafında döyüşlərdə həlak olmuşdur.

7 kitabın müəllifidir. Onlardan altısı sağlığında ikən, biri isə ölümündən 45 il sonra işıq üzü görmüşdür.

## Beydulla Musayev - 100

Beydulla Ağaəli oğlu Musayev 1907-ci ilin avqustun 10-da Ucar şəhərində anadan olmuşdur. Bakıda pedaqoji texnikumu, Moskvada II Dövlət Universitetinin ədəbiyyat fakültəsini bitirmişdir.

"Dağıstan füqərası" qəzeti və "Yeni yol" jurnalında əməkdaşlıq etmiş, ədəbiyyat müəllimi işləmiş, "Ədəbiyyat qəzeti"ndə tənqid şöbəsinin müdiri, məsul katib, Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat şöbəsində tərcüməçi və redaktor, Yazıçılar İttifaqında bölmə müdiri, "İnqilab və mədəniyyət" jurnalında məsul katib və s. vəzifələrdə çalışmışdır.

25 tərcümə kitabının müəllifidir. V.Hüqo, A.Tolstoy, Sovanyolu, A.Düma, L.Tolstoy, M.F.Dostoyevski, B.Katayev və b. yazıçıların əsərlərini dilimizə çevirmişdir.

1979-cu il iyunun 23-də Bakıda vəfat etmişdir.

## Məcid Şamxalov - 100

Əsərlərinin sayı azdır. Bununla belə onların hamısı könül oxşayıb, qəlb sevindirib. Təsadüfi deməyiblər ki, az olsun, yaxşı olsun. Onun yalnız bircə əsərinin adını çəkmək kifayətdir ki, çöhrələrə təbəssüm qonsun. Söhbət təbii ki, "Qaynana" komediyasından gedir. O əsər ki, gözəl sənətkarımız Nəsibə xanım Zeynalovanı məşhurların məşhuru etdi.

Dramaturq Məcid Şamxalov 1907-ci il mayın 2-də Ağdam rayonunun Gülab kəndində anadan olmuşdur. İbtidai təhsilini kənddə almış, 1918-ci ildə ailəliklə Bakıya köçmüşdür.

M.F.Axundov adına Dövlət teatr texnikumunda (1924-1929) təhsil aldıqdan sonra taleyini milli səhnəyə bağlamışdır.

Azərbaycan Dövlət Akademik Dram Teatrının aktyoru olmuşdur.

İlk ədəbi-ictimai fəaliyyəti "Damğa" tənqid-təbliğ teatrında rejissorluğu dövründə kiçik həcmli əsərlər yazması ilə başlanmışdır. Onun ilk əsəri "Mənzər" pyesi 1955-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında çap olunmuşdur.

"Qaynana" komediyasının 1964-1980-ci illərdə üç dəfə kütləvi tirajla buraxılması bu əsərə olan sonsuz maraqdan xəbər verir.

Gənc məzhəkəçilərin respublika müsabiqəsində birinci yeri tutaraq "Qızıl medal"a layiq görülmüşdür.

1984-cü il oktyabrın 13-də Bakıda vəfat etmişdir.

## Ağamalı Sadiq - 60

Ağamalı Əhməd oğlu Əfəndiyev 1947-ci il martın 8-də Qazaxın Qaymaxlı kəndində ziyalı ailəsində anadan olmuşdur. ADU-nun jurnalistika fakültəsini bitirmişdir. "Yazıçı" və "Maarif" nəşriyyatlarında, "Ulduz" jurnalında və Mədəniyyət Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdır.

1979-cu ildən şer, hekayə və publisist yazılarla dövrü mətbuatda müntəzəm çıxış etmişdir. Əsərləri rus və özbək dillərinə tərcümə olunmuşdur.

## Məmməd Oruc - 60

Məmməd Kazım oğlu Orucov 1947-ci il martın 8-də anadan olmuşdur. ADU-nun jurnalistika fakültəsini bitirmişdir. "Azərbaycan gəncləri" qəzeti, "Azərbaycan" jurnalı, Dövlət Televiziya və Radio Verilişləri Komitəsində müxtəlif vəzifələrdə çalışmışdır.

"Ailə səadəti", "Yadigar mahnı", "İkinci ad", "Leylək körfəzi", "İntizardan sonra", "Köçürmə" və s. kitabların müəllifidir.

**Tural**